## BAŞ REDAKTORDAN

Mingəçevir Dövlət Universitetinin (MDU) təsis etdiyi "Dayanıqlı inkişaf" multidissiplinar elmi jurnalı üçüncü ildir ki, nəşr edilir. Redaksiya heyəti və redaksiya şurası jurnalın ölkəmizin populyar elmi jurnallarından birinə çevrilməsi kimi məsuliyyətli və çətin vəzifəni üzərinə götürərək, onun nəşrlərinin elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanması hədəfinə çatmaq üçün inamla çalışır.

Bu günə kimi jurnalın 5 nömrəsi nəşr olunmuşdur. Bu nömrələrdə ümumilikdə 130 elmi məqalə dərc edilmişdir, onlardan da 52-si iqtisad elmləri, 40-ı təbiət və texnika elmləri, 38-i humanitar elmlər bölməsinə aiddir. Bu nömrədə isə 24 məqalə yer almışdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev ili" elan edilmişdir. "Heydər Əliyev İli" çərçivəsində MDU-da reallaşdırılan çoxsaylı layihələr və tədbirlər sırasında Ümummilli liderin 100 illik yubileyinə, bütövlükdə Heydər Əliyev dühasına həsr edilmiş "Dayanıqlı inkişaf" multidissiplinar elmi jurnalının təqdim olunan xüsusi buraxılışının mühüm əhəmiyyət kəsb edəcəyi qənaətindəyik. Heydər Əliyevin zəngin irsinin araşdırılması və təbliği istiqamətində görülən işlərə töhvə vermək məqsədi daşıyan bu buraxılışda Ulu Öndərin şərəfli ömür yoluna və titanik fəaliyyətinin müxtəlif sahələrinə həsr edilən elmi məqalələr yer almışdır.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq, onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Sevindirici haldır ki, jurnalın bu buraxılışında yer alan məqalələrdə Heydər Əliyev fenomeni, onun nəhəng dövlət və görkəmli siyasi xadim olması, idarəçilik prinsipləri, dövlət quruculuğundakı fədakarlığının gələcək nəsillərə örnək olması və s. məsələlər elmi cəhətdən əsaslandırılmış, real tarixi faktlara söykənərək araşdırılıb şərh edilmişdir.

İnanırıq ki, jurnalın bu buraxılışı Heydər Əliyev irsinin tədqiqatçılarına, gənc alimlərə gələcək elmi fəaliyyətləri üçün dəyərli töhfə, əbədiyaşar liderimizin əziz xatirəsinə böyük hörmət və ehtiramın nümunəsi olacaqdır.

Jurnalın ərsəyə gəlməsində əməyi və dəstəyi olan redaksiya heyəti və redaksiya şurası üzvlərinə, məqalə müəlliflərinə təşəkkürümü bildirirəm.

**Şahin Bayramov,**
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universitetinin rektoru